# Strateji inkişaf üzrə fəaliyyət planının icrasına dair

# HESABAT 2026

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

1967

NAKHCHIVAN STATE UNIVERSITY

# Ümumi struktur

## Strateji İnkişaf Planında ümumilikdə mövcuddur:

**6 məqsəd – 13 hədəf – 72 alt hədəf**

## 2026-cı ilin ilk 6 ayında:

**6 məqsəd – 8 hədəf – 45 alt hədəf** üzrə icra və monitorinq aparılmışdır.

## Əhatə dairəsi:

- Tədris və təlim keyfiyyəti
- Elmi tədqiqat və innovasiya
- Beynəlmiləlləşmə
- Keyfiyyət təminatı
- İdarəetmə və infrastruktur
- Maliyyə dayanıqlığı



# Hədəflərin icra statusu

## Cəmi icrada olan alt hədəf: 45

38 **Uğurla icra olundu**

2 **Məqbul**
Məqsəd 2.2.2.5 - Yerli və beynəlxalq birgə tədqiqatların həyata keçirilməsi
Məqsəd 3.2.2.1 - Akademik mübadilə proqramlarında iştirak

3 **Təkmilləşdirilməsinə ehtiyac var**
Məqsəd 2.2.2.6 - Təcrübi tədqiqatların aparılması və nəticələrin tədris prosesinə cəlb edilməsi
Məqsəd 3.3.1.4 - İkili diplom proqramlarının yaradılması
Məqsəd 5.5.8 – Məzunların izlənilməsi sisteminin yaradılması və tətbiqi

2 **Reallaşdırıla bilmədi**
Məqsəd 2.2.2.1 - Scopus indeksli beynəlxalq konfransın təşkili
Məqsəd 6.6.3 - Prorotip və patentlərdən əlavə gəlirlərin əldə edilməsi

## Yüksək keyfiyyətli təlim və tədris prosesinin təşkili

Alt hədəflərin əksəriyyəti 90–100% icra olunub, yalnız:
IELTS/SAT → 85%
Mentorluq → 87%
digərləri isə tam icradadır.
Real inkişaf faizi (çəkiyə görə): 92 %

Qiymətləndirmə:
**UĞURLA İCRA OLUNDU**

## Elmi tədqiqat və innovasiya potensialının artırılması

Bu məqsəd üzrə:
Tədqiqat bacarıqları → 100%
Scopus/WoS → 100%
Laboratoriyalar → 92%
Elmi tədbirlər → 100%
Start-up/spin-off → 81% (qismən)
Real inkişaf faizi: 93 %

Qiymətləndirmə:
**UĞURLA İCRA OLUNDU**

## Beynəlmiləlləşmənin gücləndirilməsi

Bütün əsas alt hədəflər:
beynəlxalq layihələr 84%
ikili diplomlar 65%
reytinqlər (QS, THE) 92 %
Mobillik - 71 %
beynəlxalq təcrübə 95%
Real inkişaf faizi: 81 %

Qiymətləndirmə:
**MƏQBUL**

## Keyfiyyət təminatının təkmilləşdirilməsi

Monitorinq → 91%
Məmnuniyyət sorğuları → 93%
Xarici keyfiyyət mexanizmləri → 72%
Analitik hesabatlar → 91%
Real inkişaf faizi: 87 %
(İnstitusional idarəetmənin ən stabil sahəsi)

Qiymətləndirmə:
**UĞURLA İCRA OLUNDU**

## İdarəetmə və infrastrukturun inkişafı

Bütün alt hədəflər:
elektron platformalar 93%
informasiya təhlükəsizliyi 87%
Infrastruktur 89%
Dayanıqlılıq → 92% icra
Real inkişaf faizi: 90 %

Qiymətləndirmə:
**UĞURLA İCRA OLUNDU**

## Maliyyə dayanıqlığının təmin edilməsi

Maliyyə mənbələrinin şaxələndirilməsi → 71%
Əlavə xidmətlər → 76%
Real inkişaf faizi: 83 %

Qiymətləndirmə:
**MƏQBUL**

# Yekun cədvəl (%-lə) — 2026




**6 Məqsəd üzrə universitetin 2026-cı ilin ilk altı ayında SFP icrası**

Real inkişaf faizi - 89 % - **UĞURLA İCRA OLUNDU**

# Əcnəbi professorların cəlbi

- Hesabat dövründə 28 əcnəbi professor universitetin tədris və elmi fəaliyyətinə cəlb olunmuşdur.
- Professorlar tədris prosesində iştirak etmiş, ixtisaslaşmış təlimlər keçirmiş və tədqiqat qrupları ilə birgə elmi araşdırmalar aparmışlar.
- Tədris və elmi fəaliyyətin keyfiyyəti yüksəldilmiş, beynəlxalq akademik əməkdaşlıq genişləndirilmişdir.
- Qabaqcıl beynəlxalq təcrübənin tətbiqi və universitetin strategiyasının icrası istiqamətində mühüm nəticələr əldə olunmuşdur.



# Təlimlər

- Akademik və inzibati heyətin peşəkar inkişafı məqsədilə müasir ali təhsil standartlarına uyğun təlimlər keçirilmişdir.
- Təlimlər çərçivəsində elmi-tədqiqat bacarıqlarının, innovativ tədris metodlarının və universitet idarəçiliyi sahəsində peşəkar səriştələrin inkişafı dəstəklənmişdir.
- Tələbəyönümlü və inklüziv təhsil yanaşmalarının tətbiqi istiqamətində əməkdaşların bilik və bacarıqları gücləndirilmişdir.
- Təlimlər universitetdə tədris, idarəetmə və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə töhfə vermişdir.








# Karyera inkişafı və peşəkar bacarıqların gücləndirilməsi

- “Karyera Sərgisi 2026” çərçivəsində tələbə və məzunların peşəkar inkişafına yönəlmiş panel müzakirələr və təlimlər təşkil edilmişdir.
- Türkiyəli alimlər və şirkət rəhbərlərinin iştirakı ilə “Industry Challenge”, NDU məzunlarının iştirakı ilə “ALUMNI TALKS – NDU-dan liderliyə” panel sessiyaları keçirilmişdir.
- Gənclərin İnkişaf və Karyera Mərkəzi ilə əməkdaşlıq çərçivəsində “Future Skills Lab – Hansı bacarıqlar uğur gətirəcək?” və “Karyera planlaması” mövzularında təlimlər təşkil edilmişdir.
- Tədbirlər tələbə və məzunların əmək bazarına hazırlığının, karyera planlaşdırılması bacarıqlarının və peşəkar kompetensiyalarının inkişafına töhfə vermişdir.







# Süni intellekt sahəsində strateji əməkdaşlıq

- Milli Süni İntellekt Mərkəzi ilə tərəfdaşlıq çərçivəsində universitet əməkdaşlarının süni intellekt sahəsində peşəkar inkişafına yönəlmiş yeni layihəyə start verilmişdir.
- Layihə çərçivəsində 17 universitet əməkdaşı üçün 8–10 aylıq intensiv təlim proqramı təşkil edilmişdir.
- Təlim proqramı Machine Learning, Deep Learning, Software Engineering və Python istiqamətlərini əhatə edir.
- Proqramın uğurla başa çatdırılması nəticəsində universitetdə süni intellekt sahəsində yerli təlimçi potensialının formalaşdırılması və rəqəmsal kompetensiyaların gücləndirilməsi hədəflənir.





# Yeni beynəlxalq əməkdaşlıqlar

## Sincan Universiteti



- Əməkdaşlıq çərçivəsində yaşıl enerji, süni intellekt, biotexnologiya və informasiya təhlükəsizliyi sahələrində birgə layihələrin həyata keçirilməsi planlaşdırılmışdır.
- "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə ikili diplom proqramının yaradılması və süni intellekt, biotexnologiya istiqamətlərində birgə mərkəzlərin təsis edilməsi barədə razılıq əldə olunmuşdur.
- Tərəflər arasında İpək Yolu Araşdırmalar Mərkəzinin yaradılması barədə razılıq əldə edilmiş, bunun elmi tədqiqatların, akademik mübadilənin və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyi nəzərdə tutulmuşdur.





# Urumçi Peşə Universiteti

- Logistika, turizm, süni intellekt, rəqəmsal media, incəsənət və tibb sahələrində birgə təhsil proqramları, yay məktəbləri və istehsalat təcrübələrinin təşkili nəzərdə tutulmuşdur.
- Tələbə və müəllim mobilliyi, akademik mübadilə, 3+1 modeli əsasında ikili diplom proqramları və hibrid formatda birgə kursların hazırlanması üzrə əməkdaşlıq istiqamətləri müəyyənləşdirilmişdir.
- Universitet–sənaye əməkdaşlığının inkişafı, Çin şirkətləri ilə birgə fəaliyyət imkanlarının yaradılması və əməkdaşlığın koordinasiyası məqsədilə hər iki universitetdə işçi qrupları formalaşdırılmışdır.











# Çin Elmlər Akademiyası

- Çin Elmlər Akademiyası ilə strateji elmi əməkdaşlığın qurulması istiqamətində ilkin razılaşmalar əldə edilmişdir.
- NDU-nun magistrant və doktorantları üçün Çində doktorantura təhsili və birgə elmi rəhbərlik imkanlarının yaradılması nəzərdə tutulmuşdur.
- Yaşıl enerji, nanomateriallar, enerji və material texnologiyaları, kimya və tətbiqi fizika sahələrində birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.
- Beynəlxalq elmi əməkdaşlığın gücləndirilməsi məqsədilə birgə elmi jurnalın təsis edilməsi barədə ilkin razılıq əldə olunmuşdur.

# Pekin Kimya Texnologiyaları Universiteti və Pekin İnformasiya Elmləri və Texnologiyaları Universiteti

- Pekin universitetləri ilə əməkdaşlıq memorandumu çərçivəsində universitetin 10 nəfərlik nümayəndə heyəti Çində təşkil olunmuş 120 saatlıq beynəlxalq təlim proqramında iştirak etmişdir.
- Təlim proqramı ali təhsil müəssisələrinin strateji idarə edilməsi, rəqəmsal transformasiya, keyfiyyət təminatı, beynəlxalq reytinq sistemləri, süni intellekt texnologiyalarının təhsil prosesinə inteqrasiyası, elmi tədqiqatların idarə olunması və universitet–sənaye əməkdaşlığı istiqamətlərini əhatə etmişdir.
- Proqram çərçivəsində iştirakçılar Çinin qabaqcıl ali təhsil modeli və innovativ idarəetmə təcrübələri ilə yaxından tanış olmuş, bu təcrübələrin universitetdə tətbiqi imkanları qiymətləndirilmişdir.






# Memar Sinan Gözəl Sənətlər Universiteti

- Memar Sinan Gözəl Sənətlər Universiteti ilə memarlıq, şəhərsalma, dizayn və təsviri incəsənət sahələrində əməkdaşlığın genişləndirilməsinə dair memorandum imzalanmışdır.
- Əməkdaşlıq çərçivəsində professor və tələbə mübadiləsi, birgə elmi-tədqiqat layihələri, simpoziumlar, konfranslar, sərgilər, seminarlar və qısamüddətli təlim proqramlarının həyata keçirilməsi nəzərdə tutulmuşdur.
- Mədəni irsin qorunması, şəhərsalma, memarlıq abidələrinin mühafizəsi və dayanıqlı inkişaf istiqamətlərində birgə akademik təşəbbüslərin həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur.
- Azərbaycan və Türkiyənin memarlıq məktəbləri arasında elmi və akademik əlaqələrin gücləndirilməsi, o cümlədən "Memar Əcəmi – Mimar Sinan Memarlıq Parkı" layihəsinin reallaşdırılması əməkdaşlığın əsas prioritet istiqamətləri kimi müəyyən edilmişdir.





# Marmara Universiteti







- Marmara Universiteti ilə təhsil, elmi-tədqiqat və akademik mübadilə sahələrini əhatə edən əməkdaşlıq müqaviləsi imzalanmışdır.
- Müqavilə çərçivəsində birgə elmi layihələrin hazırlanması, ortaq konfransların təşkili və xüsusilə sosial elmlər istiqamətində elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulmuşdur.
- Tələbə, professor-müəllim və inzibati heyətin mübadiləsi, tibb, mühəndislik və iqtisadiyyat sahələri üzrə xarici professorların universitetə cəlb olunması barədə razılıq əldə edilmişdir.
- NDU-nun Tibb fakültəsi tələbələrinin Marmara Universitetində klinik və akademik staj keçməsi, magistrant və doktorantlar üçün birgə elmi rəhbərlik mexanizminin tətbiqi planlaşdırılmışdır.

# Yeni mərkəzlərin yaradılması

## Biotexnologiyalar Mərkəzi

Biotexnologiyalar Mərkəzi yaradılmış, mərkəzin elmi-metodiki və texniki potensialının gücləndirilməsi məqsədilə Yıldız Texniki Universiteti ilə əməkdaşlıq genişləndirilmişdir.

## Nanotexnologiyalar Mərkəzi

İstanbul Texniki Universiteti ilə əməkdaşlıq çərçivəsində Nanotexnologiyalar Mərkəzi və energetika sahəsində birgə laboratoriyaların yaradılması istiqamətində işlərə başlanılmışdır.

---

Mərkəzlərin maddi-texniki bazasının təkmilləşdirilməsi, müasir biotexnoloji metodların tətbiqi və elmi-tədqiqat imkanlarının artırılması istiqamətində fəaliyyətlər həyata keçirilmişdir.









# Beynəlxalq layihələrin icrası

- Naxçıvan Dövlət Universitetində Erasmus+ proqramının DIRNA (“Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı”) layihəsi çərçivəsində beynəlxalq seminar və təlim proqramı keçirilmişdir.
- Layihə çərçivəsində açıq elm prinsiplərinin təşviqi, institusional repozitoriyaların inkişafı və universitetin tədqiqat potensialının gücləndirilməsi istiqamətində fəaliyyətlər həyata keçirilmişdir.
- Tədbirdə Azərbaycan və Avropa universitetlərinin nümayəndələri, eləcə də beynəlxalq ekspertlərin iştirakı ilə açıq elm, rəqəmsal kitabxanalar, metadata standartları, açıq giriş və süni intellektin akademik nəşriyyatda tətbiqi mövzularında təlimlər təşkil edilmişdir.
- Layihə universitetin beynəlxalq elmi əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, qabaqcıl təcrübələrin mənimsənilməsinə və elmi infrastrukturun inkişafına töhfə vermişdir.

DIRNA







# Beynəlxalq reytinqlərdə əldə olunan nəticələr

## QS Stars

Naxçıvan Dövlət Universiteti QS Stars beynəlxalq qiymətləndirmə sistemində ümumi 4 ulduz, Tədris (Teaching), İnfrastruktur (Facilities), Məşğulluq (Employability) və İdarəetmə (Good Governance) istiqamətləri üzrə isə 5 ulduz (Mükəmməl) reytinqinə layiq görülmüşdür.

Bu nəticə universitetdə keyfiyyətli tədris mühitinin, müasir infrastrukturun, məzunların məşğulluğunun və effektiv institusional idarəetmənin beynəlxalq standartlara uyğun inkişaf etdiyini təsdiqləmişdir.




## Times Higher Education

Universitet Times Higher Education tərəfindən açıqlanan THE Impact Rankings 2026 nəticələrinə əsasən 1603 universitet arasında 801–1000-ci yer qrupunda qərarlaşmışdır.

Dayanıqlı İnkişaf Məqsədləri üzrə qiymətləndirmədə SDG 4 – Keyfiyyətli Təhsil (401–600), SDG 7 – Əlçatan və Təmiz Enerji (401–600) və SDG 10 – Bərabərsizliyin Azaldılması (301–400) istiqamətlərində yüksək nəticələr əldə edilmiş, ümumi qiymətləndirmədə 55,4 bal toplanmışdır.



# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR